PLATE PIONEERZ

WORLD'S LARGEST LESSON



**MƏN NƏ QƏDƏR QİDA TULLAYIRAM?**

Ümumi vaxt:

**45-60 dəq.**

Yaş:

**9-14 yaş**

# Qida tullantıları
# Hesablama tədqiqatı




## Fənn:

Coğrafiya, Riyaziyyat, Həyat bilgisi

## Təlim nəticələri:

- Dayanıqlı inkişaf üzrə qlobal məqsədlərin əhəmiyyətini anlamaq;
- Şagirdləri qida tullantıları mövzusunda ciddi müzakirələrə sövq etmək;
- Fənlərarası əlaqə vasitəsilə konsepsiyanı daha dərindən anlamaq, bacarıqları dərinləşdirmək;
- Dayanıqlı inkişaf naminə Qlobal məqsədlərə nail olmaq üçün şagirdləri qida istehlakına şüurlu yanaşmağa, qida itkisinə yol verməməyə sövq etmək.

## Materiallar:

- Video və məqalələri nümayiş etdirmək üçün cihazlar;
- Məqalə: http://www.fao.org/save-food/resources/keyfindings/en/
- Video: https://www.youtube.com/watch?v=B1-pKWOt2yM
- Riyazi tədqiqat üçün tapşırıq vərəqi (Əlavə B);
- "Hər yeməyin öz tarixçəsi" üzrə tapşırıq vərəqi.

## Hazırlıq:

- Əlavə B-də qida tullantılarının tədqiqatı üçün tapşırıq vərəqlərini çap edin.
- Şagirdlərin məktəb yeməkxanasındakı vəziyyəti təhlil etməsi üçün gün seçin.

**Qeyd:** Bu dərs "Boşqabındakı nədir?" tapşırığı və animasiya filmindən ibarət olan "Hər yeməyin öz tarixçəsi" dərsinin davamı üçün uyğundur.


DÜNYANIN ƏN BÖYÜK DƏRSİ unicef tcc

## Müəllim üçün qeyd

Bu dərs zamanı şagirdlər məktəb yeməkxanasında qida tullantılarını müşahidə edərək tədqiqatçı olacaqlar. Şagirdlər qida tullantılarının faizini müəyyən edib onu qrafik şəkildə təsvir edəcəklər.

## Açar sözlər

- Dayanıqlılıq
- İnkişaf
- Məqsəd
- İqlim
- İstehlak
- Kəmiyyət
- Keyfiyyət
- Məlumat
- Sübüt
- Təsir

## Addım 1: Qida tullantıları mövzusuna giriş

15 dəq.

### "Hər yeməyin öz tarixçəsi" dərsində aparılmış sorğunun müzakirəsi.

Dərsi "Hər yeməyin öz tarixçəsi" dərsində aparılmış sorğu vərəqinə baxmaqla başlayın. Şagirdlərdən iş vərəqlərinə baxmağı və nə qədər qida tulladıqları barədə düşünməyi xahiş edin.

### Qida tullantıları barədə məlumat

BMT-nin Qida və Kənd Təsərüfatı Təşkilatının məlumatına əsaslanaraq qida tullantıları və bu tullantıların azaldılması barədə faktları və informasiyanı müzakirə edin.

http://www.fao.org/save-food/resources/keyfindings/en/ və

http://www.fao.org/resources/infographics/infographics-details/en/c/317265/

Statistik məlumatları müzakirə edin, dünya üzrə qida itkisi və tullantılarını əks etdirən cədvəli təhlil edin.

Qeyd: Şagirdlərin qida itkisi və qida tullantıları arasında fərqi bildiyindən əmin olun. Bu dərsin qida tullantılarına həsr olunduğunu qeyd edin.

### Video

Qida tullantılarını izah edən videoya baxın: https://www.youtube.com/watch?v=B1-pKWOt2yM

Global Citizen təşkilatının bu videoçarxı nə üçün yaratdığını – dünyada qida tullanmasının qarşısını almaq istəyini – müzakirə edin.

## Addım 2: Təlim fəaliyyəti

5 dəq.

### Məlumatın toplanması və nümayiş etdirilməsi

Şagirdlər nahar fasiləsi zamanı müşahidə apararaq tədqiqat üçün məlumat toplayacaqlar. Şagirdlər yeyilən və atılan qidanın miqdarını müqayisə edəcəklər. Şagirdlər dəftərlərində öz müşahidələrini:

- Qrafik şəkildə təsvir etməli;
- Detallara varmalı;
- Dəqiq nümayiş etdirməlidirlər.

Bu onlar üçün kəmiyyət göstəricisi olacaq. Şagirdlər, həmçinin aşbazlarla, yeməkxana işçiləri və şagirdlərlə söhbət apararaq keyfiyyət göstəricilərini də əlavə edə bilərlər.

### Məlumatların qiymətləndirilməsi

Məlumatın toplanılmasından sonra şagirdlər hesablamalar apararaq tullanmış qidanın miqdarını (faizlə) müəyyən etməli və sonra onu cədvəl və qrafiklərdə qeyd etməlidirlər. Onlar nəticələri sübutlarla nümayiş etməlidirlər (Əlavə B).

### Məlumatlar fəaliyyətə çağırır

Nəticələrə əsaslanaraq şagirdlər məktəbin, ailənin qida itkisi və tullantılarının miqdarını necə azalda biləcəyi barədə birgə düşünə bilərlər. Bir müddətdən sonra növbəti qiymətləndirmə keçirərək görülmüş tədbirlərin nəticəsini ölçmək olar.

Şagirdlərdən ərzağı yerli fermalar və ya qonşu bağçılıq təsərrüfatlarından almaq imkanı barədə soruşun. Bu onların yaşadıqları ərazidə mümkündürmü?

## Paylaşma fəaliyyəti:

5 dəq.

Şagirdləri topladıqları məlumatları sosial şəbəkələrdə paylaşmağa sövq edin. Bu məlumatları qida tullantılarının azaldılmasına istiqamətlənmiş ideyalarla əlaqələndirin.

İdeya və dərslərinizi sosial şəbəkələrdə paylaşın:

#WorldsLargestLesson

#TeachSDGs

Dünyanın ən böyük dərsi üçün istifadə edin:

- Facebook: @TheWorldsLargestLesson
- Twitter: @TheWorldsLesson
- Instagram: @TheWorldsLesson

FLIPGRID.

- Şagirdlərdən ideya və fikirlərini paylaşmağı xahiş edin: https://flipgrid.com/globalvoice
- Fəaliyyətinizi Qlobal məqsədlər üzrə dünya xəritəsinə əlavə edin: http://worldslargestlesson.globalgoals.org/map



DÜNYANIN ƏN BÖYÜK DƏRSİ unicef tcc

## Əlavə resurslar

Bu, qida tullantılarının qarşısının alınması vacibliyinin sübutudur (Global Citizen).
https://www.globalcitizen.org/en/content/reducing-food-waste-saves-money/

Hər gün qida tullantısının qarşısını almaq üçün 32 tövsiyə (Global Citizen)
https://www.globalcitizen.org/en/content/tips- for-reducing-food-waste/

### Müəlliflər

Bu dərs "Dünyanın ən böyük dərsi" və #TeachSDGs hədəf qrupunun əməkdaşlığı nəticəsində ərsəyə gəlmişdir.

TeachSDGs hədəf qrupuna, Calliope Global, Fran Sirakusa və Cenifer Vilyamsa xüsusi minnətdarlığımızı bildiririk.

## Əlavə A: Qlobal Məqsədlərin Plakatı



# Əlavə B: Qida tullantılarının tədqiqatı üçün tapşırıq vərəqi

Ad: Sinif:

*Təlimat: Yemək fasiləsi zamanı siz yeyilən və tullanan qidanın miqdarını tədqiq edəcəksiniz.*

1. Nümayəndə heyəti seçin (hər nümayəndə 3 şagirdin yeməyini müşahidə edəcək)
2. Şagirdlərin boşqabının yeməyə başlamazdan əvvəl və sonra şəklini çəkin.
3. Qidanın təsviri və miqdarını qeyd etmək üçün nişanlardan istifadə edin.
4. Faizlərə əsaslanaraq orta balları hesablayın.

Əvvəl    Sonra    Fərdi ballar

Boşqab #1

% Yeyilib: _______

% Tullanıb: _______

Boşqab #2

% Yeyilib: ___________

% Tullanıb: _______

Boşqab #3

% Yeyilib: ___________

% Tullanıb: _______

**Ümumi ballar**

**% Yeyilib: ___________**

**% Tullanıb: _______**